

# MÖHTƏŞƏM 20 İL

2003 2023

Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə yenidən qayıdışı Azərbaycanı ziddiyyətlər burulğanından xilas etdi. Dünyada gedən siyasi proseslərə peşəkar təsir imkanları olan Heydər Əliyev Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkədə qarşıdurmadan sülhə, böhrandan tərəqqiyə, ətalətdən dinamik fəaliyyətə istiqamətlənən həyat tərzi başlandı. Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması ölkədə iqtisadiyyatın inkişafına zəmin yaratdı.



# Azərbaycan sahibkarlığının inkişaf dövrü

2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi.

Müstəqil Azərbaycanın tarixinə əlamətdar hadisə kimi daxil olaraq ictimai həyatın bütün sahələrində inkişafa yeni təkan verən 2003-cü ilin 15 oktyabr seçkiləri nəticə etibarilə cəmiyyətin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən Heydər Əliyev siyasi kursunun davamlılığını şərtləndirən əsas amil oldu.

Ötən illərdə ölkədə həyata kecirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafelərini özündə əks etdirməsi dövlət başçısı İlham Əliyevin yüksək bilik və intellektə, təcrübə və istedada, geniş dünyagörüşə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha nümayiş etdirdi.

Ümumilikdə geridə qalan 20 il Azərbaycan dövlətinin yüksəlişi və öz hədəflərinə yetişməsi üçün formalaşdırdığı böyük potensialın bütün əzəməti ilə reallığa çevirdiyi əlamətdar mərhələdir. Müdrik xalqımızın 20 il öncə inanıb taleyini etbar etdiyi cənab İlham Əliyev həyata keçirdiyi qlobal layihələrlə Ümummilli Liderin böyük amallarını gerçəkliyə çevirən qüdrətli siyasi xadim olduğunu təsdiqləmişdir. Dövlət başçısının yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə əsaslanması bir sıra strateji sahələrdə əldə olunmuş uğurlar fonunda aydın görünür.

Hazırda Azərbaycan dövləti çoxəsrlik şanlı tarixinin ən parlaq inkişaf dövrünü yaşayır. Bu gün dünya dövlətləri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir.

Bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələlərini qısa zamanda sürətlə adlayan Azərbaycan bazar iqtisadiyyatı, demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yoluna, sivil Qərb dəyərlərinə sadiqliyini sübuta yetirmişdir. Ötən dövrün sosial-iqtisadi uğurlarla müşayiət olunan inkişaf göstəriciləri Avratlantik məkana inteqrasiya kursunu əzmlə davam etdirən, transmilli enerji və kommunikasiya layihələrini həyata keçirən, Cənubi Qafqazın ən nüfuzlu ölkəsi kimi tanınan müstəqil respublikamızın sosial-iqtisadi sahədə də yüksək dinamizmlə inkişaf etdiyini təsdiqləyir.

Qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artırılması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, qeyri-neft sektorunun ümumi daxili məhsuldakı çəkisinin yüksəldilməsi, regionların tarazlı və davamlı inkişafı, yeni istehsalat müəssisələrinin açılması, işsizlik probleminin, yoxsulluğun tədricən aradan qaldırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məsələləri son 20 ildə dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərini təşkil etmişdir. Ölkə rəhbəri özünəməxsus siyasi məharətlə dövlətə rəhbərlik fəaliyyətinin bütün məqamları arasında qırılmaz bağlılığa, məntiqi ardıcıllığa nail olmuş, Azərbaycanda dövlət idarəçiliyinin özünəməxsus mükəmməl sistemini formalaşdırmış, bu sistemin xalqın mənafeyinə uyğun həyata keçirilməsini təmin etmişdir.

Bu müddətdə ölkə iqtisadiyyatı 3,4 dəfə artmışdı. İqtisadiyyata 250 milyard dollar investisiya qoyulmuşdur. Dövlət büdcəsinin həcmi 20 dəfəyədək artmış, strateji valyuta ehtiyatlarının həcmi 30 dəfə çoxalaraq 67,5 milyard dollara çatmışdır. Sahibkarlıq subyektlərinin sayı 3 dəfə artmış, işsizlik 5 faizə enmiş, yoxsulluq səviyyəsi azalaraq 5 faizdən də aşağı enmişdir.

Bütün bunlar çoxsaylı statistik göstəricilərin bir hissəsidir. Odur ki, bu gün cənab İlham Əliyevi hər bir Azərbaycan vətəndaşı, hər bir seçici ölkənin tərəqqisinin qarantı kimi görür, müasirləşmənin təminatçısı kimi qəbul edir.

Prezidentin rəhbərliyi altında həyata keçirilən və ilk növbədə sosialyönümlü problemlərin kompleks həllinə geniş imkanlar açan səmərəli islahatlar, imzalanan dövlət proqramları, fərman və sərəncamlar ölkəmizdə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edir, tərəqqi prosesində özəl sektorun payı və rolunu davamlı şəkildə artırır.

Hazırda Azərbaycan dövləti tərəfindən işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir.

Prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edir.

Prezident bütün görüşlərdə, bütün tədbirlərdə qətiyyətlə bəyan edirdi ki, Azərbaycan dövləti öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək və nəyin bahasına olursa-olsun öz torpaqlarını işğaldan azad edəcəkdir. Bunun üçün Prezident İlham Əliyev mütərəqqi hərbi islahatlar həyata keçirdi, ordumuzun döyüş imkanlarını modern səviyyəyə yüksəltdi. Beləliklə, işğalçı Ermənistanın 2020-ci il sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribatdan sonra Azərbaycan Ordusu Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə özünün tarixi və şərəfli missiyasının icrasına başladı. Bu müharibə dövlətimizin gücünün, xalqımızın milli iradəsinin və həmrəyliyinin təntəsinə çevrilərək torpaqlarımızın işğaldan azad olunması, pozulmuş ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. 44 günlük bu savaşda Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə müzəffər Azərbaycan Ordusu yalnız 30 illik müasir müstəqillik tariximizin deyil, son bir neçə əsrlik tariximizin ən şərəfli səhifəsini yazdı.

Azərbaycan tarixinin ən böyük sərkərdəsi, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin eyni zamanda bir neçə müstəvidə fədakarcasına apardığı mübarizə, xalqımızın Ali Baş Komandan ətrafında "dəmir yumruq" kimi birləşməsi, Silahlı Qüvvələrimizin hərbi taktiki və strateji üstünlüyü, hərbçilərimizin yenilməz döyüş ruhu bu müharibədə Ermənistan üzərində parlaq qələbəni təmin etdi.

Bu Böyük Zəfər bütün dünyaya nümayiş etdirdi ki, xalqının dəstəyinə arxalanan, xalqın sonsuz inamından ilhamlanan sərkərdənin rəhbərlik etdiyi dövlət böyük güclərin müqavimətinə baxmayaraq, öz suverenliyini bərpa etməyə qadirdir!

Azərbaycan əsgərinin yenilməzliyi qarşısında döyüş meydanından qaçmaqdan başqa çarəsi qalmayan erməni separatizminin 21 sentyabr tarixdə BMT-nin Təhlükəsizlik Şurasında aldığı zərbə isə Azərbaycan dövlətinin, şəxsən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq nüfuzunun növbəti göstəricisi oldu.

Həm hərb meydanında, həm diplomatiya müstəvisində qazanılan bu möhtəşəm və əzəmətli qələbənin bir adı vardır - İlham Əliyev! Çünki gələcəyə hesablanmış və zərgər dəqiqliyi ilə ölçülmüş strateji qərarları ilə bu qələbəni mümkün edən, ardıcıl, məqsədyönlü və fədakar fəaliyyəti ilə onun gerçəkləşməsini günbəgün yaxınlaşdıran, bu qələbənin altından imzasını atmaqla hər bir azərbaycanlının qəlbində özünə əbədi sevgi və ehtiram məşəlini alovlandıran məhz odur.

Son illərdə Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atılır. Vətən müharibəsindəki böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi, yenidənqurma, tikinti-quruculuq işlərinin başlanması qarşıda duran ən prioritet məsələlərdir.

İstisnasız olaraq bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı məhz sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlıdır. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilir, üzərilərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirir, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.

Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasızlıqla həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sıralarda dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri var.

Vətən müharibəsində əldə edilmiş şanlı qələbə haqqında danışarkən Müzəffər Ali Baş Komandanımızın ən yaxın silahdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük rolunu xüsusi qeyd etmək istəyirəm. Hərbi qulluqçuların təminatı, sağlamlıqlarının mühafizəsi, yaralıların müalicəsi, Şuşada və digər bölgələrimizdə qədim mədəniyyətimizə və tarixi irsimizə aid abidələrin bərpa olunması, mülki vətəndaşların düşmən zərbələrindən qorunması və bu kimi onlarca digər məsələni xüsusi diqqət mərkəzində saxlayan Birinci vitse-prezidentin verdiyi tapşırıqlar və bu istiqamətdə gördüyü işlər böyük Zəfərin əldə olunması üçün son dərəcə əhəmiyyətli oldu.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri aparılır. İşğaldan azad olunmuş yaşayış məskənlərində məskunlaşacaq sakinlər yüksəkkeyfiyyətli, "ağıllı" texnologiyalarla təchiz edilmiş evlərlə və iş yerləri ilə təmin olunacaqlar.

Cari ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısı öz çıxışında bildirdi ki, "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır hamısını öz hesabımıza edirik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib".

Ölkə Prezidenti işğaldan azad olunmuş ərazilərə səfəri zamanı çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırırdı. O, son çıxışlarının birində qeyd etdi ki, "Mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Cari ilin martında keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə ölkə Prezidenti bir daha qeyd etdi ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Böyük qayıdış proqramının icrasına başlanılmışdır.

Yenidənqurma prosesində yerli şirkətlərlə bərabər xarici investorlar da podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ölkə Prezidentinin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir.

Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasına uyğun olaraq həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.

İkinci Qarabağ müharibəsindən sonra ölkə rəhbərliyi tərəfindən beynəlxalq təşkilatların və dövlət rəsmilərinin iştirakı ilə keçirilən görüşlərdə dəfələrlə Azərbaycanın mövqeyinin sülh sazişinin imzalanması olduğu qeyd edilmiş, erməniəsilli vətəndaşların Azərbaycan cəmiyyətinə reinteqrasiya olunmasının vacibliyi, onların hüquq və azadlıqlarının Azərbaycanda yaşayan onlarla milli azlıqlar kimi Konstitusiyamıza uyğun qorunacağı, ölkədə yaşayan bütün insanlar kimi onların da sosial vəziyyətinin yaxşılaşdırılması, infrastrukturun yenilənməsi, yeni iş yerlərinin yaradılması kimi sosial tədbirlərin həyata keçiriləcəyi vurğulanmışdır.

Lakin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamış, Azərbaycanın Qarabağ bölgəsində sentyabrın 9-da qondarma "prezident seçkiləri"nin keçirilməsi də daxil olmaqla, bu hərəkətlərin Azərbaycanın suverenliyinə qarşı Ermənistanın və onun yaratdığı və dəstəklədiyi qondarma separatçı qurumun məqsədyönlü təxribatlarının davam etməsi, Ermənistanın revanşist silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən terror məqsədilə əvvəlcədən minaların quraşdırılması, nəticədə mülki şəxslərin və polis əməkdaşlarının həlak olması, həmçinin ordumuzun bölmələrinin minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutulması Azərbaycan tərəfindən lokal xarakterli antiterror tədbirləri keçirilməsini zəruri etdi.

23 saat davam edən hərbi əməliyyatlar sentyabrın 20-də saat 13:00-da dayandırıldı.

Bu hadisələrdən sonra Ermənistanın baş naziri Nikol Paşinyan İspaniyanın Qranada şəhərində Azərbaycanın 86,6 min kvadrat kilometrlik ərazisini tanıyan bəyanatı imzaladı. Beləliklə, vətən müharibəsi və ondan sonrakı dövrdə Azərbaycan öz milli maraqlarını qətiyyətlə təmin etdi.

Azərbaycan eyni zamanda regionda iqtisadi və tranzit imkanlar baxımından ən üstün dövlətdir. Yerində sayan və geri gedən isə yalnız Ermənistandır. Bu baxımdan sülhə daha çox ehtiyacı olan da Ermənistandır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin irəli sürdüyü təkliflər isə sülhün yeganə təminatıdır.

İyirmi il müddətində görülən işlər və nəticələr bu gün deməyə əsas verir ki, Azərbaycan dünyaya özünün uğurlu inkişaf modelini təqdim edə bilmiş və qısa zaman kəsiyində ölkəmizdə, sözün əsl mənasında, inqilabi yeniləşmə və tərəqqiyə nail olunmuşdur.

Azərbaycan Respublikasının vətəndaşları olaraq, sahibkarlar da dövlətimizin, xalqımızın təəssübünü çəkir, onun hər uğuruna, nailiyyətinə ürəkdən sevinirlər.

Hər bir sahibkar aydın dərk edir ki, İlham Əliyevə səs verməklə onlar, özlərinin sabahına, sahibkarlığın inkişafına səs verirlər. Ona görə də onlar Prezident seçkilərinə böyük həvəslə gəlmiş, fəallıq və mütəşəkkillik nümayiş etdirmişlər. Ölkənin siyasi həyatında fəal iştirak etmək, taleyüklü məsələlərin həll olunduğu məqamlarda ayıqlıq və çeviklik göstərmək Azərbaycan sahibkarlarına xas olan xüsusiyyətlərdir.

Ölkədə həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır.

Elmin son nailiyyətləri, texnika və texnologiyanın fasiləsiz yeniləşməsi, innovasiya menecmentinin və marketinqinin tətbiqi, sahibkarların innovasiya və risk qabiliyyətlərinin tam reallaşdırılması, mülkiyyətin dövlətsizləşdirilməsi, əsl iqtisadi yarış imkanlarını verən mühitin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. İstehsal sferasında sahibkarlıq strukturlarının yaradılmasının məqsədəuyğun istiqamətləndirilməsi və stimullaşdırılması vasitəsilə innovasiyaya əsaslanan yüksək keyfiyyətli əmtəə və xidmətlərin təklifinin sabit artımına dövlət tərəfindən müvafiq şərait yaradılmışdır.

Müəyyənləşdirilmiş iqtisadi inkişaf strategiyası nəinki ölkəmizin inkişafında müstəsna rol oynayır, hətta bir model olaraq keçid iqtisadiyyatı ölkələrinin iqtisadi inkişafı baxımından nümunəyə çevrilməkdədir.

Son illərdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamlar sahibkarlara dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərildiyini bir daha sübut edir.

2023-cü ildə sahibkarlığın maliyyə təminatı yaxşılaşmış, güzəştli kreditlərin həcmi artmışdır. Sahibkarlara maliyyə dəstəyi çərçivəsində bu il ərzində 1300 layihənin maliyyələşməsinə 65 milyon manatdan çox güzəştli kredit verilmişdir.

Respublikada həyata keçirilən məqsədyönlü islahatlar ölkədə siyasi və iqtisadi sabitliyin bərqərar olmasına, sosial-iqtisadi inkişaf meyillərinin möhkəmlənməsinə imkan yaratmışdır. İctimai həyatın bütün sahələrində dönüş yaranmış, əhalinin maddi rifah halının yaxşılaşmasında nəzərəçarpacaq uğurlar qazanılmış və bu uğurların qazanılmasında təbii ki, sahibkarların rolu danılmazdır.

Ölkədə aparılan sosial-iqtisadi siyasətin strateji məqsədləri bazar münasibətlərinə və özünü inkişaf qabiliyyətinə malik olan sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təcrübəsinə inteqrasiyanın təmin edilməsidir.

2023-cü ilin yanvar-avqust aylarında ölkədə 80,1 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,1 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 2,6 faiz artmış, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 7895,0 manata bərabər olmuşdur.

Bu müddətdə qeyri-neft-qaz sektoru 3,1 faiz artmış, kənd təsərrüfatında 5 faiz artım qeydə alınmış, ümumi daxili məhsulun 83 faizi özəl sektorda formalaşmışdır.

Azərbaycan Respublikası ikitərəfli və çoxtərəfli münasibətlərdə etibarlı tərəfdaş, beynəlxalq təhlükəsizlik və enerji sektorunda mühüm söz sahibi, dünyada etnik-dini tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir.

Dövlət başçısı İlham Əliyevin uğurla reallaşdırdığı inkişaf strategiyası nəticəsində Azərbaycanın inkişaf etmiş ölkələr sırasına çıxarılması və əhalimizin yüksək gəlirli topluma çevrilməsi, qeyri-neft sektorunun, özəl bölmənin, sahibkarlığın hərtərəfli inkişafı sayəsində ümumi daxili məhsulun 2 dəfə artırılması, dövlət və özəl qurumların birgə fəaliyyəti üzrə yeni strategiyanın hazırlanması, ən müasir texnologiyaları tətbiq etməklə iqtisadiyyatın modernləşdirilməsi, elm və innovasiyalara əsaslanan cəmiyyət quruculuğu, hüquqi dövlətçilik prinsiplərinin, insan hüquq və azadlıqlarının tam bərqərar edilməsi Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca hədəflərdir.

Azərbaycanda ardıcıl və dinamik inkişafı, rəqabətədavamlı iqtisadiyyatı təmin edən islahatlar nüfuzlu iqtisadi qurumlar və reytinq agentlikləri, o cümlədən beynəlxalq birlik tərəfindən ciddi təhlil edilir və yüksək qiymətləndirilir.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində 2022-ci ildə də nüfuzlu beynəlxalq qurumların reytinqlərində Azərbaycan iqtisadi göstəricilərinə görə yuxarı sıralarda yer almışdır.

Belə ki, Fiç Reytinq beynəlxalq kredit agentliyi Azərbaycan Respublikasının uzunmüddətli yerli və xarici valyutada reytinqini müsbət qiymətləndirərək, proqnozun "sabit"dən "pozitiv"ə doğru yüksəldiyini bildirmişdir.

Bununla bağlı, Azərbaycan Respublikasının xalis suveren aktivlərinin 2022-2024-cü illərdə 14 faizdən çox artacağı proqnozlaşdırılır ki, bu da reytinq qrupunda ən yüksək göstəricidir.

Başa vurmaqda olduğumuz ildə sosialyönümlü büdcə siyasəti, əhalinin maddi rifah halının yaxşılaşması, neft gəlirlərini qeyri-neft sektoruna yönəltməklə və modern texnologiyalara əsaslanmaqla yeni və qabaqcıl sənaye sahələrinin yaradılması, iqtisadi və sosial infrastrukturun, yol-nəqliyyat sektorunun davamlı inkişafı, eyni zamanda dövlətimizin hərbi qüdrətinin yüksəldilməsi ilə əlamətdar olmuşdur. Ölkə rəhbərliyi səviyyəsində qəbul olunan və ictimai-siyasi, sosial-iqtisadi, humanitar-mədəni həyatın çoxşaxəli spektrini əhatə edən çoxsaylı konseptual-strateji mahiyyətli sənəd və dövlət proqramları hazırda icra edilməkdədir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası bu işdə fəallıq göstərərək, sahibkarlara kömək etmək məqsədilə ayrıca tədbirlər planı işləyib hazırlamış və hazırda onun həyata keçirilməsi sahəsində mühüm işlər həyata keçirilir.

Azərbaycan Sahibkarlar Konfederasiyası üzv sahibkarları ilə birlikdə "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər keçirir, dövlət tədbirlərində yaxından iştirak edərək, Ulu Öndərin irsinin gənc nəslə çatdırılması istiqamətində öz fəaliyyətini genişləndirir.

Konfederasiya sosial tərəfdaşlığın subyekti kimi Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial-iqtisadi siyasəti və sosial-əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Saziş bağlayıb.

Konfederasiya Baş Kollektiv Sazişin tərəfdaşı kimi sosial dialoq məsələlərinə önəm verir.

Eyni zamanda əmək hüquqlarının müdafiəsi, əməyin mühafizəsi, texniki və ekoloji təhlükəsizlik Azərbaycan hökuməti ilə əməkdaşlığın prioritet istiqamətlərindəndir.

Azərbaycan Sahibkarlar Konfederasiyası bir çox ölkələrin sahibkarlıq təşkilatları, xarici ölkələrin Azərbaycandakı və Azərbaycanın xaricdəki səfirlikləri, Dünya Bankı, Avropa İttifaqının komissiya və təşkilatları və digər beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edərək yerli iş adamlarına Azərbaycanda və ölkə hüdudlarından kənarda tərəfdaşlar tapmaqda və investisiya qoyulmasında kömək göstərir.

Sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, konsaltinq xidmətlərinin göstərilməsidir. Bu məqsədlə cari ilin 9 ayı ərzində İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun dəstəyi ilə coxsaylı tədbir - forum, sərgi, seminarlar kecirilmişdir.

Azərbaycanda biznes mühitinin daha da yaxşılaşdırılması və ixrac potensialının artırılması məsələlərinə dövlətimizin başçısı daha çox diqqət yetirir. Bu məqsədlə xaricdəki səfirliklərimiz, xarici dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri ilə geniş iş aparılır.

Ölkə iqtisadiyyatının bütün sahələrində əldə olunan yüksək nəticələr və davamlı sürətli inkişafa hesablanan sosial-iqtisadi layihələrin reallaşdırılması əminliklə deməyə əsas verir ki, ölkə Prezidentinin rəhbərliyi altında iqtisadi potensialımız 2023-cü və növbəti illərdə daha da güclənəcəkdir.

Prezident İlham Əliyev müstəqil dövlətçilik konsepsiyasını məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu strateji kurs üzərində formalaşdırır və bu kursu yeni dövrün tələblərinə uyğun zənginləşdirir. O, xalqı Heydər Əliyev ideyaları ətrafında toparlayır, özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi Ulu Öndərin yarımçıq qalmış ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi hələ bir sıra mühüm vəzifələr gözləyir.

2003-cü ildə Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının namizədi olan cənab İlham Əliyevi birmənalı şəkildə dəstəkləməklə öz gələcəyinə səs verdi. Həmin seçkilərdə xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilən cənab İlham Əliyev oktyabrın 31-də vətənə və xalqa sədaqət andı içdi. Bununla da müstəqil Azərbaycan dövlətçiliyinin tarixində gənc və qətiyyətli bir Prezidentlə yeni dövr başladı.

Oktyabrın 15-də cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20 ili tamam olacaq. Dönüb geriyə baxanda, tarixə ekskursiya edəndə, müqayisələr aparanda bu 20 ildə Azərbaycanın əsrə bərabər möhtəşəm inkişaf yolu keçdiyini görürük.

*Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq bütün Azərbaycan sahibkarları adından ölkə Prezidenti cənab İlham Əliyevi bu əlamətdar gün münasibətilə təbrik edir, onun apardığı siyasəti dəstəkləyir, ölkənin dinamik inkişafına yönəlmiş bütün tədbirlərin həyata keçirilməsi prosesində yaxından iştirak etməklə öz töhfəmizi verməyə, Azərbaycanın daha da qüdrətli olması üçün bütün qüvvəmizi səfərbər etməyə çalışırıq.*

**Məmməd MUSAYEV,**

***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***